

# Kollektivləşmə Qərbi azərbaycanlılara qarşı çox sərt tərzdə həyata keçirildi

XX əsrin otuzuncu illərində Sovet İttifaqında həyata keçirilən kollektivləşmə kampaniyası indiki Ermənistan adlanan ərazidə genişlənsə də, bu, Qərbi Azərbaycanda yaşayan Azərbaycan türklərinə qarşı çox ciddi, çox sərt şəkildə həyata keçirilirdi.

(davamı 11-ci səhifədə)





# Kollektivləşmə Qərbi azərbaycanlılara qarşı çox sərt tərzdə həyata keçirildi

(əvvəli 1-ci səhifədə)

Əslində bu, erməni vandallarının ürəyincə idi. Ermənilərin soydaşlarımıza qarşı ən mənfur niyyətlərini həyata keçirmək üçün maneəsiz imkan yaranmışdı. Türk xalqlarına qarşı düşmənçilik mövqeyində dayanan erməniləri cəsarətli, qorxmaz türk oğullarının yalan yerə şərlənib tutulmasına real imkanlar yaradılmışdı. Hətta Ermənistan Kommunist Partiyasının məxfi keçən toplantılarının birində ayrı-ayrı rayonların birinci katiblərinə belə bir tapşırıq verilmişdi: "Sovetin qanunudur, əlinizdə qılınc möhkəm dayanın, türklərin ərən oğullarına "qulaq" damğası vurub həbslərə atın"...



Varlı adamların var-dövləti, mal-qarası əlindən güclə alınıb kolxoz təsərrüfatına verilirdi. Bir az tərəddüd edən, ləngiyən Azərbaycan oğulları "qolçomaq" adı altında damğalanır, xalq düşməni kimi qələmə verilirdi. Bu qəbildən olan soydaşlarımız Qazaxıstana və ya Sibirə sürgün edilirdilər. Çox zaman ailə başçısı tutulduqdan sonra əmlakı müsadirə olunur, ailə üzvləri sürgünə göndərilirdi.

"Xalq düşməni" adı ilə ittiham olunan bu ailələrə sürgündən sonra da doğma ocağına dönməyə icazə verilmirdi. 1930-1937-ci illərdə Çəmbərək (Krasnoselo), Basarkeçər, Kəvər, Zəngəzur, Martuni (Qaranlıq) və digər rayonlardan 300-dən artıq ailə "qolçomaq" adı ilə Sibirə və Qazaxıstana sürgün edilmişdi. Bu ailələrin üzvlərindən çox az qismi sonralar geri qayıda bilmişdi. Qeyd etmək lazımdır ki, həmin ailələrin 90 faizi bu ədalətsizliyin qurbanı olmuşdur. Sürgün həyatından azərbaycanlıların ölüm xəbərini eşidəndə faşist xislətli ermənilərin sevinci aşıb-daşırdı. Repressiya Ermənistanın türklər yaşayan bütün məntəqələrində elə geniş şəkil almışdı ki, hər həftə, hər ay yük qatarları onlarla ailəni Sibir çöllərinə ölüm yuvasına aparırdı.

"Qardaş xalqların birliyi" şüarını dilində əzbər edən Moskva bu zavallı millətin böyük faciəsinə göz yummuşdu. Çünki bu xəyanətdə erməni əli var idi, bu ideyanın müəllifləri erməni keşişlərindən başqa kim ola bilərdi? Hətta Moskva geniş xalq kütləsini inandırmağa çalışırdı ki, onlar "qolçomaq"dırlar və bizim ictimai quruluşun düşmənləridir. Göyçədə, Dərəçiçəkdə olduğu kimi, repressiya Vedibasar, Qəmərli, Zəngəzur, Zəngibasar, Pəmbək, Ağbaba torpağında da qəddarlıqla həyata keçirilirdi. Belə bir haqsızlığı qəbul edə bilməyən kəndlilər üsyan edirdilər. Artıq əhali başa düşürdü ki, sovet xalqını milli birliyə çağıran erməni bolşevikləri öz çirkin daşnak ideyalarından əl çəkməyiblər. Vedinin Çimən, Böyük Vedi, Kiçik Vedi, Dəhnəz, Dərəçiçəyin Qayqocalı, Təkərli, Dədəqışlaq, Misxana, Göyçənin Toxluca, Ağbulaq, Ardanış, Şişqaya, Nərimanlı, Canəhməd, Bala Qaraqoyunlu, Böyük Qaraqoyunlu, Daşkənd, Ağkilsə, Zod, Subatan, İnəkdağı kəndlərindən olan onlarla adamlar Ermənistan hökumətinin ədalətsizliyinə qarşı tüfəng götürüb dağlara çəkilmişdilər.



M.Ə.Rəsulzadənin baş redaktorluğu ilə 1930-cu ildə Türkiyədə nəşr olunan "Odlu yurd" məcmuəsi "Vedibasar və Naxçıvan üsyanları davamlıdır" başlıqlı məqalədə yazırdı: "Üsyan bir tərəfdən İrəvana və Göyçə gölünə, digər tərəfdən Ordubad və Zəngəzura sirayət etmişdir. Zəngəzur, Ordubad, Naxçıvan, Vedibasar və Göyçə partizanları arasında rabitə mövcud olub. Qarabağ, Gəncə və Muğan partizanları ilə əlaqəyə girməyə səy edirlər. Sovet Ermənistanı kommunistlər şurasının sədri Sedrak Sarkisyan partizanların hücumlarına məruz qalaraq öldürülmüş, sürücüsü və dostu ağır yaralanmışdır. Ermənistan Respublikası təşkil olunduqdan sonra erməni ideoloqları azərbaycanlı əhalinin arasında güclü təxribat toxumu səpməyə başladılar. Kasıb və varlı təbəqə arasında düşmənçilik yaymaqla, hətta qohum-qardaşı da üz-üzə qoyurdular.

Həmin dövrdə və ondan sonrakı illərdə dağlara çəkilmiş bir çox partizan dəstələri erməni hökumətinə qarşı mübarizə aparırdılar. Basarkeçərin Bala Qaraqoyunlu camaatının demək olar ki, 90 faizi ailəliklə dağlara çəkilib qaçaqçılıq edirdi. 1930-cu ildə Göyçənin Ardanış kənd sakini olan Məşədi Hümbət erməni millətindən olan milis idarəsinin rəisini güllə ilə vurub oğlu və kürəkəni ilə dağlara çəkilmişdi.

Kollektivləşmə zamanı kolxoza yazılmaqdan boyun qaçırdıqlarına görə və digər bəhanələrlə Basarkeçər rayonundan 25 və Vedi rayonundan 28 azərbaycanlı güllələnmiş, bu iş erməni başbilənlərini razı salmışdır. Vedi rayonunun Alıməmməd kəndində yaşayan 80 ailə 1932-ci ildə bir gecədə özlərini Araz çayına vurub Türkiyəyə qaçan zaman onların çoxu Araz çayında qərq olmuşdu. 1937-ci ildə "kolxozun inkişafına mane oldular deyə" Basarkeçər rayonundan bir gecədə 157 nəfər adam həbs edildi və qazamata salındı.

Ümumiyyətlə, kollektivləşmə zamanı Qərbi Azərbaycanda yüzlərlə günahsız insanlara "qolçomaq" damğası vuruldu. Bu işə dirijorluq edənlər isə türklərin qatı düşməni olan erməni terror dəstələri və onların Moskvadakı havadarları oldu. O dəhşətli illərdə neçə-neçə ailələrin kişiləri şərböhtana düçar olub, sürgün edildi, dul qadınlar uşaqları ilə faciə ilə üzləşdilər.

**Qədir ASLAN,**
**"Respublika".**